**Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında**
**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın**

# Q Ə R A R I

Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya 2004-cü il 21 aprel tarixdə keçirilmiş iclasında müzakirə edilmiş məsələlər üzrə aşağıdakıları **qərara alır:**

1. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, Dövlət Qulluğunu İdarəetmə Şurasının sədri cənab R.Ə.Mehdiyev Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın sədri seçilsin.

2. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununa və onun tətbiqi barəsində Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tövsiyyə olunsun ki, 2004-cü il iyunun 3-dək Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Əsasnaməsinin layihəsini hazırlayıb təqdim etsin.

3. Azərbaycan Respublikası Prezidentinin Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsi və Hüquq mühafizə orqanları ilə iş şöbəsi Əsasnamənin vaxtında hazırlanıb təqdim edilməsini təmin etsinlər.

**Azərbaycan Respublikası Dövlət Qulluğunu**
**İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı** **R.Mehdiyev**
**mübarizə üzrə Komissiyanın sədri**

Bakı şəhəri, 21 aprel 2004-cü il
№ 1